**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*əlyazması hüququnda*

**SƏBİNƏ YAŞAR QIZI ƏLİYEVA**

# ƏLİLLƏRİN HÜQUQLARININ MÜDAFİƏSİ SAHƏSİNDƏ BEYNƏLXALQ HÜQUQ NORMALARININ AZƏRBAYCAN RESPUBLİKASININ QANUNVERİCİLİYİNƏ İMPLEMENTASİYASI

**İXTİSAS: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V TO R E F E R A T I**

**BAKI – 2016**

**Dissertasiya işi Bakı Dövlət Universitetinin Hüquq fakültəsində yerinə yetirilmiş, geniş müzakirə edilərək əsas müdafiəyə tövsiyə edilmişdir.**

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor Ə.İ.ƏLİYEV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor O.F.ƏFƏNDİYEV**<br>**hüquq üzrə elmlər doktoru A.İ.MUSTAFAYEVA** |
| **Aparıcı təşkilat:** | **Milli Aviasiya Akademiyasının "Hüquqşünaslıq" kafedrası** |

Dissertasiya işinin müdafiəsi "___" "_____________" 2016-cı il tarixdə saat "_____" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Beynəlxalq münasibətlərin durmadan dərinləşməsi və genişlənməsinə, tənzimetməyə ehtiyacı olan ictimai münasibətlərin inkişaf tendensiyasının davamlılığına baxmayaraq, hər bir zaman insan hüquqlarının qorunması və müdafiəsi xüsusi önəm və aktuallıq kəsb etmişdir. Eyni zamanda, bu prosesin ümumidən xüsusiyə doğru inkişaf etməsi, habelə ayrı-ayrı subyektiv imkanlar və sosial qruplarla bağlı müxtəlif beynəlxalq sənədlərin qəbulu yarımsahəvi və institusional aspektlərin nəzərdən keçirilməsi zərurətini də meydana çıxartdı. Bu istiqamətdə əlillərin hüquqlarının müdafiəsi mühüm yer tutur. Müasir dövrdə dünya əhalisinin 15%-dən yuxarı hissəsi, yəni, 1 mld.-dan çox insan məhz əlillikdən əziyyət çəkir ki, onun da 190 mln. nəfərini, yaxud 3,8%-ni "kəskin əlillik" diaqnozu qoyulan şəxslər təşkil edir[1]. Azərbaycan Respublikasında (AR) isə ölkə əhalisinin ümumi sayının 6%-ini, yaxud 568149 nəfərini əlillər və sağlamlıq imkanları məhdud şəxslər təşkil edir[2].

Təcrübə göstərir ki, bu kateqoriyadan olan şəxslər, eyni zamanda, cəmiyyətdə bir sıra məhdudiyyət və maneələrlə qarşılaşırlar. Onlara qarşı yönələn məhdudiyyətlər, yaxud yaradılan maneələr *(məsələn, qeyri-münasib norma, standart və siyasətin mövcudluğu, cəmiyyət tərəfindən mənfi münasibət və onların cəmiyyətə inteqrasiyadan məhrun olunması, xidmətlərin çatışmazlığı və daşınma imkanlarının zəifliyi, müyəssərlik problemləri və s.)* nəticədə həmin şəxslər arasında təhsil və əmək hüququnun pozulması kontekstində yoxsulluğun yaranmasına, habelə psixoloji meyarların *(məsələn, depressiya, özünə inamsızlıq, imkanlarının düzgün qiymətləndirilməməsi, özünü cəmiyyətdən tərcrid etmə və s.)* formalaşmasına gətirib çıxarır. Məhz bu baxımdan, əlillərin müdafiəsinə dair beynəlxalq hüquq normalarının qəbulu və realizəsi mühüm əhəmiyyət kəsb edir. XX əsrin 40-cı illərindən başlanaraq davam edən bu proses özünü müxtəlif mərhələlər üzrə büruzə vermişdir. Həmin mərhələlər isə əlillərin hüquqlarının qorunması və müdafiəsi baxımından özünəməxsus səciyyəvi xüsusiyyətlərə malikdir. Belə ki, ilkin mərhələ kimi XX əsrin 40-cı illərinin sonundan 70-ci illərin əvvəllərinədək insan hüquqlarının qorunmasına dair beynəlxalq sənədlərdə əlillik konkret subyektiv imkanların təminatı və tənzimetmə obyekti üçün yalnız bir element qismində çıxış etmişdir. XX əsrin 70-ci illərindən başlayaraq 2006-cı ilə qədər davam

[1] World Health Organization&The World Bank. World Report on disability. Valetta: 2011, p. 261
[2] www.udpo.az/category.php?lang=1&content=346



edən ikinci mərhələdə qəbul olunan beynəlxalq sənədlərdə əlillərə məxsus spesifik subyektiv imkanlar, eləcə də onlar üçün lazımi şəraitin yaradılmasına dair normalar formalaşdırıldı. "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının qəbulu isə üçüncü mərhələni şərtləndirmişdir. Sözügedən sənəddə öhdəlik xarakterli müddəaların və əlillərin hüquqlarına dair sahəvi rəhbər başlanğıcların təsbit olunması, əlil-qadın və əlil-uşaqların hüquqları və imkanlarının realizəsinin nəzərdə tutulması, habelə nəzarət mexanizminin formalaşdırılması onu kompleks beynəlxalq-hüquqi sənəd kimi qiymətləndirməyə əsas verir.

Bununla yanaşı, insan hüquqlarının müdafiəsinə digər müqavilə normaları *(məsələn, "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyası, "Yerli xalqların hüquqları haqqında" 2007-ci il Bəyannaməsi, "Texniki və peşə təhsili haqqında" 1989-cu il Konvensiyası və s.)* və mexanizmlərinin *(məsələn, İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə, Uşaq Hüquqları Komitəsi, Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə və s.)* rolu da qeyd olunmalıdır. Təsadüfi deyildir ki, dünyada əlillərin 95 milyonu məhz əlil-uşaqların, xüsusilə 14 yaşına qədər olan yeniyetmələrin payına düşür ki, onun da 13 milyonunu kəskin əlilliyi olan uşaqlar təşkil edir[3]. Azərbaycan Respublikasında isə bu göstərici 65482 nəfər, yaxud ümumi əlillərin 12%-dir. Qadın-əlillərin payı isə 40%, yaxud 202450 nəfər təşkil edir[4]. Bütün bunlar onu göstərir ki, əlillərin hüquqlarının müdafiəsi təkcə ümumi kontekstdə deyil, həm də ayrı-ayrı qrupların müdafiəsi baxımından qiymətləndirilməlidir.

Bundan başqa, istər təcrübədə, istərsə də digərləri ilə ünsiyyət və cəmiyyətə inteqrasiya prosesində əlillər həm də ayrı-seçkiliyin qurbanları qismində çıxış edir. Bununla da bir sıra hallarda cəmiyyətin onlara qarşı antipatiyası və ayrı-seçkilik xarakterli fərqli münasibəti *(yəni, "ableizm" faktorlarının meydana çıxması)*, eləcə də bu kateqoriyadan olan şəxslərin rüsvayçılıq, qorxu, təəssüf, tənə kimi alşaldıcı hərəkətlərin obyektinə çevrilməsi ehtimalı daha da güclənir[5]. Digər tərəfdən, əlillərin öz daxilində də ayrı-seçkilik hallarının, xüsusilə gender bərabərsizliyinin olması, əlil-qadınların cəmiyyətin daha çox "hüquqsuz və passiv" iştirakçısına çevrilməsinə gətirib çıxarır. Ümumiyyətlə, əlillik meyarına görə ayrı-

[3] World Health Organization&The World Bank. World Report on disability. Valetta: 2011, p. 261
[4] www.udpo.az/category.php?lang=1&content=346
[5] Rauscher L., McClintock M. Ableism curriculum design. In: Teaching for diversity and social justice. A Sourcebook. Edited by M.Adams, L.A.Bell., P.Griffin. New-York: Psychology Press, 1997, pp. 198-199

seçkiliyin qadağan olunması beynəlxalq hüquq normalarında özünü həm birbaşa *(məsələn, BMT Baş Məclisinin 1991-ci il tarixli qətnaməsi ilə təsdiq olunmuş "Psixi xəstəliyi olan şəxslərin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılmasına dair Prinsiplər", "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyası, "Əsas hüquqlar haqqında" 2001-ci il Aİ Xartiyası və s.)*, həm də dolayısı yolla büruzə verir. Sonuncu hala daha çox insan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilə mexanizmlərinin sənədlərində, yaxud beynəlxalq məhkəmə praktikasında rast gəlmək mümkündür. Nümunə qismində İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitənin "Əlilliyi olan şəxslər haqqında" 1994-cü il tarixli 5 nömrəli Ümumi Rəyi, Uşaq Hüquqları Komitəsinin "Əlilliyi olan uşaqların hüquqlarına dair" 2006-cı il tarixli 9 nömrəli Ümumi Rəyi, eləcə də AİHM-in təcrübəsi *(məsələn, Pretty Birləşmiş Krallığa qarşı" (2002), "Çam Türkiyəyə qarşı" (2016), "Quberina Xorvatiyaya qarşı", "Glor İsveçrəyə qarşı" (2009), "İB Yunanıstana qarşı" (2013) və s.)* göstərilə bilər.

AR-də isə əlillərin hüquqlarının qorunması sahəsində sahəvi qanunvericilik aktı və hüquqi tənzimetmə vasitəsi 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanun sayılır. Bundan əlavə, əlillərin ayrı-ayrı subyektiv imkanlarını nizama salan dövlətdaxili qanunvericilik aktları da mövcuddur. Nümunə qismində "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" 5 iyun 2001-ci il tarixli Qanununu göstərmək olar. Həmçinin ayrı-ayrı ictimai münasibətlərin tənzimlənməsi sahəsində qəbul olunan çoxsaylı dövlət proqramları bu və ya digər mənada əlillərin müdafiəsinə dair normaları ehtiva etməklə, həm qanunvericilikdə olan boşluqların aradan qaldırılmasına, həm də bu kateqoriya şəxslərin müdafiəsinin müasir dövrün tələbləri ilə uyğunlaşdırılmasına xidmət edir. Belə ki, AR Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası"nda xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud uşaqlar üçün müxtəlif inkişafetdirici, korreksiyaedici və inklüziv təhsil proqramlarının tətbiq edilməsi, onların bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi, informasiya əldə etmək imkanlarının artırılması və cəmiyyətdən təcrid olunmasının qarşısının alınması sahəsində tədbirlərin həyata keçirilməsi ilə bağlı müddəalar təsbit olunmuşdur. Ölkə Başçısının 27 dekabr 2011-ci il tarixli 1938 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının



müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda isə bu şəxslərlə bağlı tibbi, pedaqoji kadrların və sosial işçilərin hazırlanması (bənd 2.8), eləcə də YUNESKO-nun "Təhsil hamı üçün" prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif təbəqələri (o cümlədən, əlillər) üçün hüquqi maarifləndirmə sahəsində təlimçilərin hazırlanmasına (bənd 4.8) dair normalar öz əksini tapmışdır. Eyni zamanda, dövlətimiz "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasına özünün 2 oktyabr 2008-ci il tarixli Qanunu ilə qoşulmuşdur.

Beləliklə, əlillərin müdafiəsinin vacibliyini və beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyasının əhəmiyyətini nəzərə alaraq, bu sahədə elmi araşdırmanın aparılmasının zəruriliyini və bu mövzunun aktuallığını bir sıra meyarlarla əlaqələndirmək olar. *Birincisi*, əlillərin müdafiəsi təkcə hüquqi tənzimetmənin obyekti deyil, həm də sosial, psixoloji, antropoloji amillərin məcmusu kontekstində nəzərdə keçirilməlidir. Yəni, məsələyə yekcins baxımdan deyil, kompleks yanaşmaq vacibdir. *İkincisi*, əlillər, eyni zamanda, ayrı-seçkiliyin subyekti qismində çıxış edirlər. Burada söhbət təkcə birbaşa şəkildə əlillik meyarına görə ayrı-seçkiliyin qadağan olunmasını deyil, həmçinin güman olunan ayrı-seçkilikdən gedir. Sonuncu isə daha çox insan hüquqlarına müdafiəsinə dair nəzarət mexanizmlərinin fəaliyyətində təzahür edir. *Üçüncüsü*, əlillərin hüquqlarının təminatı zamanı sahəvi rəhbər başlanğıcların nəzərə alınması vacibdir. Həmin prinsiplərin hüquqi mənbəyi qismində "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyası çıxış edir. Bu prinsiplər beynəlxalq hüququn ümumtanınmış prinsipləri (xüsusilə, əsas insan hüquq və azadlıqlarına hörmət olunması, dövlətlərin əməkdaşlığı, beynəlxalq öhdəliklərin vicdanla icrası) əsasında realizə olunmaqla, əlillərin hüquqlarına və mənafelərinə toxunan digər normalarla qarşılıqlı əlaqədə götürülməlidir. *Dördüncüsü*, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsi və qorunması təkcə sahəvi beynəlxalq sənədlər, yaxud təşkilati mexanizmlər tərəfindən həyata keçirilmir. Burada həm də insan hüquqlarının digər yarımsahə və institutlarını təşkil edən hüquqi normaların və institusional fəaliyyətin rolunu da nəzərə almaq lazımdır. Çünki ayrı-ayrı sosial qruplara (məsələn, qadınlar, uşaqlar, qaçqınlar, ahıllar, yerli xalqlar, miqrantlar, milli azlıqlar və s.) mənsub əlillərin hüquqlarının qorunması və müdafiəsi həm də bu qrupların hüquqlarına dair münasibətlərin tənzimlənməsi ilə sıx qarşılıqlı əlaqəyə malikdir. *Beşincisi*, əlillərin hüquqlarına dair dövlətdaxili səviyyədə, o cümlədən AR-də həyata keçirilən tədbirlər (qanunvericilik, təşkilati, xüsusi və s.) tədqiqatın mühüm hissəsini təşkil edir. Bu, bir tərəfdən, əlillərin müdafiəsi ilə bağlı beynəlxalq öhdəliklərin nəzərə alınması

və icrası, digər tərəfdən isə insan hüquqları və əsas azadlıqlarının qorunmasının mühümlüyü ilə əlaqədardır. Eyni zamanda, əlillərin maddi-sosial təminatı, peşə hazırlığı, inkluziv təhsilin inkişafı, əlillər arasında gender bərabərliyinin təmini və digər ümdə vəzifələrin həyata keçirilməsi də mütləq şəkildə nəzərə alınmalıdır. *Altıncısı*, əlillərin müdafiəsi ilə bağlı istər beynəlxalq sənədlərdə, istərsə də dövlətdaxili qanunvericilik aktlarında mövcud olan boşluqların aşkar olunması və təhlili, habelə bunların aradan qaldırılmasına dair tövsiyə və təkliflərin verilməsi elmi-nəzəri, praktiki və qanunvericilik baxımından mühüm əhəmiyyət kəsb edir. *Yeddincisi*, yuxarıda qeyd olunan hallar təkcə əlillərlə bağlı tənzimetmə mexanizmi və elmi-nəzəri müddəalar çərçivəsində deyil, insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi kontekstində nəzərdən keçirilməlidir.

Həmçinin onu da nəzərə almaq lazımdır ki, Azərbaycan hüquq elmində əlillərin hüquqlarının müdafiəsi məsələsi hal-hazıradək kompleks şəkildə tədqiq olunmamışdır. Bu və ya digər dərəcədə həmin şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı məsələlərin yalnız bir sıra aspektlərinin beynəlxalq hüquq (L.Hüseynov və b.), konstitusiya hüququ (Z.A.Əsgərov və b.), əmək və sosial təminat hüququ (M.N.Əliyev, K.T.Hüseynova, Ə.Ə.Mustafayeva, K.Z.Əliyeva və b.), insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinin müxtəlif aspektləri – əcnəbilər hüququ (Ə.İ.Əliyev), sosial hüquqların müdafiəsi (Ş.İ.Əliyev, G.C.Nuriyeva və b.), məişət zorakılığına qarşı mübarizə və qadın hüquqları (N.M.Fərziyeva, G.R.Ələsgərova), uşaq hüquqları (N.A.Adilov), insan hüquqları sahəsində beynəlxalq normaların realizəsində Ombudsmanın rolu (S.İ.Abdullayeva) barədə həyata keçirilən elmi-tədqiqatlar çərçivəsində araşdırılmasını və bunların əhəmiyyətini xüsusilə vurğulamaq lazımdır.

Tədqiqatın **obyektini** cəmiyyətin həssas təbəqəsinə daxil olan kateqoriyalardan sayılan əlillərin hüquqlarının qorunması, müdafiəsi və realizəsi, habelə əlillik meyarı ilə bağlı meydana çıxan problemlərin hüquqi həlli yollarının araşdırılması, **predmetini** isə əlillərə dair, habelə onların maraqlarına və qanuni mənafelərinə toxunan beynəlxalq sənədlər və AR qanunvericilik aktları, o cümlədən bu sahədə mövcud olan beynəlxalq məhkəmə praktikası təşkil edir.

**Tədqiqatın məqsədi** müvafiq beynəlxalq hüquq normaları və milli qanunvericilik aktları, bu sahədə meydana çıxan fikir müxtəlifliyinin geniş təhlili əsasında əlillərin hüquqlarına dair beynəlxalq hüquq normalarının AR qanunvericiliyinə implementasiyası ilə bağlı müddəaları müəyyənləşdirməkdən, eləcə də mövcud boşluqların aradan qaldırılması məqsədilə beynəlxalq və dövlətdaxili səviyyədə tənzimetməyə ehtiyacı olan istiqamətlər üzrə yeni normaların qəbulu ilə bağlı təklif və tövsiyələr irəli sürməkdən ibarətdir.



Göstərilən məqsədə nail olmaq üçün dissertasiya işində **aşağıdakı vəzifələr** qarşıya qoyulmuşdur:

- əlillərin hüquqi statusunun müəyyən edilməsində mühüm rol oynayan "əlil" və "əlillik" kateqoriyalarının anlayışı və izahının elmi-nəzəri araşdırmalar və hüquq normaları əsasında tədqiq olunması, bu sahədə mövcud olan ziddiyyətlərin aşkar olunması;
- insan hüquqlarının tərkib elementi kimi ayrı-seçkiliyin qadağan olunması kontekstində əlillərə qarşı fərqləndirmə və istisna hallarını müəyyən etməklə, elmi və hüquqi müddəalara əsaslanmaqla bu vəziyyətin yolverilməzliyinin sübut olunması;
- qlobal səviyyədə əlillərin müdafiəsinə dair beynəlxalq əməkdaşlığın inkişaf dinamikası, əsas aspektləri, yeni tendensiyaların araşdırılması;
- "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının mövcud sahədə beynəlxalq-hüquqi tənzimetmə mexanizmində yeri və rolunun öyrənilməsi, yeni tendensiyaları əks etdirən normalarının önə çəkilməsi, sözügedən sənədlə bağlı elmi-nəzəri müddəaların müqayisəli təhlili;
- səciyyəvi xüsusiyyətləri nəzərə alınmaqla, istər ümumi fəaliyyət istiqamətinə malik olan, istərsə də yalnız insan hüquqlarının müdafiəsinə dair mexanizm rolunu oynayan regional beynəlxalq təşkilatlar çərçivəsində əlillərin müdafiəsi vəziyyətinin araşdırılması, həmin qurumların bu sahədə normayaradıcılıq və nəzarət funksiyalarının hərtərəfli öyrənilməsi;
- universal və regional mexanizmlər arasındakı ziddiyyətlər və boşluqların aşkar olunması, həmin halların aradan qaldırılması üçün zəruri təklif və tövsiyələrin verilməsi;
- əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində dövlət orqanlarının təsnifatının irəli sürülməsi, həmçinin onların bu sahədə yeri və rolu, həyata keçirilən müvafiq praktiki tədbirlərin icrasına dair vəziyyətin təhlili;
- müstəqillik qazandıqdan sonra formalaşan, habelə müasir ictimai münasibətlərin tənzimlənməsi və idarə olunması zərurətindən irəli gələn şəraitdə yaradılmış yeni dövlət qurumlarının əlillərin hüquqlarının qorunmasında rolunun araşdırılması;
- Əlillərin hüquqları üzrə Komitənin monitorinq və nəzarət fəaliyyəti çərçivəsində AR ilə qarşılıqlı əməkdaşlığının əsas elementləri, habelə ölkə qanunvericiliyinin və digər mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı verdiyi təklif və tövsiyələrin nəzərdən keçirilməsi.

**Tədqiqatın metodoloji əsasını ümumnəzəri** və sosial-elmi idrak metodları təşkil edir. Dissertasiyada formal-məntiqi və müqayisəli-hüquqi metodlardan daha geniş şəkildə istifadə olunmuşdur. Tədqiqat işində sistemli, müqayisəli, induksiya, deduksiya, konkret-sosioloji, tarixi və digər elmi metodlar da tətbiq edilmişdir.

**Tədqiqatın nəzəri əsası.** Dissertasiya işini hazırlayarkən müəllif Adilov N.A., Əliyev Ə.İ., Əliyev M.N., Həsənzadə S.B., Hüseynov L.H., Mehdiyev R.Ə., Məmmədov F.T., Musayev A.F., Rəcəbli H.M., Rzayev Ə.H., Aqeeva A.V., Amiridze S.P., Arqunova T.P., Qaşina N.N., Donkan İ.M., Equpova M.A., Javoronkov R.N., Kalinin A.M., Kulaqina E.V., Kuzmin V.P., Maliçenko V.S., Moldovan A.A., Polenov B.V., Fitisov A.V., Çeçelaşvili V. Şoxina E.A., Allan M., Altman B., Bueren G.V., Davis L.J., Doebber C.F., Harris D., Hendriks A., King J., Levav İ., Lord J., Morsink J., Rimmerman A., Sano R., Skotç İ.K., Steyn M.A., Stone D.A., Suzor N., Yellin E., Ziv N. və digər tanınmış alimlərin əsərlərinə istinad etmişdir.

Bundan əlavə, insan hüquqlarına dair çoxsaylı beynəlxalq sənədlər, beynəlxalq təşkilatların aktları, insan hüquqları müdafiəsi sahəsində ayrı-ayrı nəzarət mexanizmlərinin – İnsan Hüquqları Komitəsi, İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitə, Uşaq hüquqları Komitəsi, Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə, Avropa İnsan Hüquqları Məhkəməsi, Sosial Hüquqlar üzrə Avropa Komitəsi, İnsan Hüquqları üzrə Amerikaarası Məhkəmə, İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyasının qərarları, Ümumdünya Səhiyyə Təşkilatının hesabat və tövsiyələri, habelə bu sahədə AR və çoxsaylı xarici ölkələrin qanunvericilik aktlarının müxtəlif müddəaları qarşılıqlı və müqayisəli əsaslarla geniş şəkildə təhlil olunmuşdur. Eyni zamanda, sahəvi nəzarət mexanizmi kimi Əlillərin hüquqları üzrə Komitənin müvafiq məsələlərlə bağlı ölkəmizdə keçirdiyi monitorinq, eləcə də bu monitorinq nəticəsində sözügedən qurum tərəfindən verilən təklif və tövsiyələr nəzərdən keçirilmişdir.

**Dissertasiyanın elmi yeniliyi** ondan ibarətdir ki, bu işdə Azərbaycan hüquq elmində ilk dəfə olaraq, beynəlxalq-hüquqi baxımdan əlillərin hüquqlarının qorunması və müdafiəsi məsələləri, habelə bununla bağlı beynəlxalq hüquq normalarının Azərbaycan qanunvericiliyinə implementasiyası kompleks şəkildə tədqiq edilmiş, əlillərin hüquqlarına dair universal və beynəlxalq hüquq normaları ilə Azərbaycan qanunvericiliyinin müqayisəli təhlili aparılmışdır. Tədqiqatın elmi yeniliyi daha konkret olaraq müdafiəyə çıxarılan **yeni elmi müddəalarla** ifadə olunur:



1. Elmi-nəzəri araşdırmalarda əlilliyin bir sıra modellərinin (tibbi model, xeyriyyə/rifah modeli, sosial model, formalaşma konsepsiyası, insan müxtəlifliyi modeli, biopsixo-sosial konsepsiyası) irəli sürülməsinə baxmayaraq, bu meyarın müəyyənləşdirilməsi zamanı əsas diqqəti tibbi modelin tələblərinə yönəltmək lazımdır. Çünki istənilən şəxsin əlil statusu alması üçün mütləq şəkildə hər hansı tibbi pozuntu (məsələn, fiziki, psixoloji, əqli, ruhi) özünü büruzə verməli və bütün bunlar mütəxəssislər tərəfindən təsdiqlənməlidir. Şübhəsiz ki, bu halda sağlamlığın pozulmasına yol açan, habelə şəxs nəticəsini qabaqcadan gördüyü və bununla belə qəsdən yol verdiyi hərəkətlər (məsələn, narkomaniya, toksikomaniya, kleptomaniya, piromaniya, alkoqolizm və s.) istisna hal olaraq nəzərə alınmalıdır. Çünki sonuncu halların əlilliklə bağlı hər hansı əlaqəsi yoxdur.

2. Əlilləri digər həssas qruplardan fərqləndirən əsas cəhət onların tərkibinin müxtəlifliyi ilə bağlıdır. Yəni, əlillər öz sıralarında bütün cins və yaş mənsubiyyətinə mənsub olmaqla, sabit fiziki, psixi, əqli və ya ruhi pozuntuları olan insanları birləşdirirlər. Onların hüquqlarının müdafiəsi və qorunması isə həm sahəvi, həm də sahələrarası normalar və təşkilati mexanizmlər vasitəsilə təmin edilir. Həmçinin, əlillərə məxsus subyektiv imkanların (məsələn, bərabərlik hüququ, təhsil hüququ, əmək hüququ, şəxsi həyatın toxunulmazlığı, sağlamlığın qorunması hüququ və s.) realizəsi zamanı müvafiq sahəvi beynəlxalq sənədlərə istinad olunur. Çünki bu normalar ümumi müddəaları təsbit etməklə, spesifik əlamətlərin, yəni inkluzivliyin də mütləq şəkildə nəzərə alınmasını ehtiva edir. Qeyd olunanları nəzərə alaraq, "Əlillərin beynəlxalq-hüquqi müdafiəsi"ni beynəlxalq insan hüquqları hüququnun sahələrarası və institutlararası elementləri özündə ehtiva edən kompleks yarımsahəsi kimi nəzərdən keçirmək lazımdır. Bunu həm yuxarıda sadalanan keyfiyyətlər, həm də müasir beynəlxalq hüquqda əlillərin hüquqlarının müdafiəsinə dair spesifik rəhbər başlanğıcların formalaşması da sübut edir.

3. Şəxslərin əlil kateqoriyasına aid edilməsi üçün əsas baza rolunu oynayan və mühüm əhəmiyyət kəsb edən terminoloji aspekt baxımından AR milli qanunvericiliyi ilə bu sahədə qəbul olunmuş beynəlxalq hüquq normaları arasında ciddi ziddiyyətlər mövcuddur. Belə ki, 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanunun 2-ci maddəsində təsbit olunmuş "əlil" termini "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının 1-ci maddəsində öz əksini tapan analoji kateqoriyanın tərifi ilə uyğunsuzluq təşkil

edir. Digər ziddiyyət isə bu kateqoriyaya aid edilən şəxslərin "əlil" adlandırılması ilə bağlıdır. Çünki bu sahədə mövcud olan beynəlxalq-hüquqi sənədlərdə "əlil" terminindən deyil, "əlilliyi olan şəxs", "sağlamlıq imkanları məhdud şəxslər", yaxud "imkanları məhdud şəxslər" anlayışından istifadə edilir. Hətta "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasında da "əlil" *(ingiliscə "disabled person")* deyil, əlilliyi olan şəxs *(ingiliscə "person with disabilities")* terminindən istifadə edilmişdir. AR milli qanunvericilik aktlarında da bununla bağlı ziddiyyətlər mövcuddur. Çünki 25 avqust 1992-ci il tarixli Qanunda "əlil", 5 iyun 2001-ci il tarixli "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanunda isə "sağlamlıq imkanları məhdud şəxs" terminindən istifadə olunur.

4. Şəxslərin əlil hesab olunması ilə bağlı beynəlxalq sənədlər arasındakı ziddiyyətlərin aşkar olunması və onların müqayisəli təhlili də mühüm əhəmiyyət kəsb edir. Belə ki, "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyasının 23-cü maddəsi əlil-uşaqlara yönəlsə də, burada söhbət yalnız əqli və ya fiziki çatışmazlığı olan uşaqlardan gedir. Bu halda "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının 1-ci maddəsinə istinad etsək, görə bilərik ki, əlillik sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntularının mövcudluğu ilə xarakterizə olunur. Məhz bu müqayisə nəticəsində aşkar şəkildə hiss olunur ki, 1989-cu il Konvensiyanın qənaətinə görə, psixi və ya hissiyyat pozuntusu olan uşaqlar müdafiədən kənarda qalırlar. Bununla əlaqədar, əlil-uşaqların statusunun müəyyənləşdirilməsi zamanı bütövlükdə 2006-cı il Konvensiyasının 1-ci maddəsinin nəzərə alınması, yaxud 1989-cu il Konvensiyasının 23-cü maddəsinə düzəlişlər edilməsini nəzərdə tutan əlavə protokolun qəbulu məqsədəmüvafiq hesab olunur.

5. Əlillərin hüquqlarının müdafiəsi və onların ehtiyaclarının nəzərə alınması davamlı inkişaf konsepsiyasının tələbləri ilə tam şəkildə uyğunlaşdırılmalıdır. Bunu BMT-nin "2015-2030-cu illər üçün Davamlı İnkişafın Məqsədləri" adlı sənədi, eləcə də Əlillərin hüquqları üzrə Komitənin bir sıra sənədləri (məsələn, 2014-cü il tarixli "Davamlı İnkişafın Məqsədlərinə dair Bəyanat" və s.) də sübut edir. Bu isə müəyyən əlaqəli tədbirlərin görülməsini tələb edir. Məsələn, davamlı inkişaf konsepsiyasının məqsəd və hədəflərinin icrası və yeniləşdirilməsində əlillərin, yaxud onların nümayəndələrinin iştirakının təmin olunması; əlillərin hüquqlarının realizəsi ilə inkluzivliyin, əlyetərliliyin və davamlı inkişafın uyğunlaşdırılması; ölkələr arasında bərabərsizliyin azaldılması və tədricən ləğvi; hamı üçün inkluziv və



bərabərhüquqlu keyfiyyətli təhsilin təmini, eləcə də uzunmüddəli təlim imkanlarının həvəsləndirilməsi və s.

6. Müasir elmi-texniki tərəqqinin davamlılığı, informasiyalaşmış cəmiyyətin geniş vüsət alması, habelə yüksək texnologiyaların davamlı inkişafı və onun gündəlik həyat fəaliyyətinin tərkib hissəsinə çevrilməsi informasiya-texnologiyalarından istifadəni zərurətə çevirmişdir. Məhz bu baxımdan, xüsusi elementlərə (məsələn, Brayl əlifbası, toxunulmaqla duyulan ünsiyyət vasitələri, böyük şriftlər, multimedia və spesifik audio-video vasitələri və s.) malik olan informasiya texnologiyalarının, o cümlədən kompüter və digər əlaqəli qurğuların istehsalının və cəmiyyətə çatdırılmasının mütəmadi xarakter alması məqbul hesab oluna bilər. Həmçinin radio və televiziya yayım vasitələrində əlillərlə bağlı maarifləndirici proqramların hazırlanması və yayımlanması, eləcə də yayım zamanı əlilliyi olan şəxslərin xüsusi ehtiyaclarının (eşitmə imkanlarının məhdudluğu, görmə qabiliyyətinin minimum həddə olması, əqli geriliyin mövcudluğu və s.) maksimum dərəcədə nəzərə alınması vacibdir.

7. Əlillərin cəmiyyətdə onların maraqlarına toxunan müxtəlif münasibətlərin nizamlanması və ayrı-ayrı problemlərin həlli üçün onların təmsilçilik institutunun inkişafı mühüm əhəmiyyət kəsb edir. Belə ki, birincisi, qanunvericilik aktlarında, eləcə də müəyyən məzmunlu (məsələn, ölkə, regional və yerli çərçivədə sosial müdafiə və inkişaf, iqtisadi inkişaf, təhsil, ekologiya, məşğulluq) proqram və layihələrdə maraqları və qanuni mənafelərinin nəzərə alınması, əlillərin nümayəndəli qurumlarda (parlament və yerli özünüidarəetmə orqanlarında üzvlük, həmkarlar ittifaqlarının rəhbərliyi və s.) təmsilçiliyinin təmin olunması mühüm əhəmiyyət kəsb edir. Çünki onların cəmiyyətdə və həyat fəaliyyətinin müxtəlif sferalarında qarşılaşdıqları səciyyəvi problemlər və həmin problemlərin həlli yolları, şəxsi ehtiyacları və bu tələbatların şəraitə uyğun olaraq dəyişməsi, eləcə də müvafiq sahədə tənzimetməyə ehtiyacı olan məsələlərə həmin şəxslərin yanaşması daha effektiv ola bilər. İkincisi, normayaradıcılıq prosesi, fəaliyyət proqramlarının tərtibi və digər zəruri tədbirlərin görülməsi, eləcə də icra mexanizmlərinin qurulması prosesində əlilləri təmsil edən təşkilatlarla dövlət qurumlarının qarşılıqlı əməkdaşlığı önə çəkilməlidir. Üçüncüsü, əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində vətəndaş cəmiyyəti institutlarının, xüsusilə qeyri-hökumət təşkilatlarının formalaşdırılmasına və həmin təsisatların fəaliyyətinə əlillərin cəlb olunması məsələyə daha səmərəli yanaşma tərzi ola bilər. Çünki həmin təşkilatların həyata keçirdiyi layihələrdə təşkilatçı, yaxud digər tərəf qismində əlillərin çıxış

etməsi problemlərin daha düzgün və bu kateqoriyadan şəxslərin maraqları çərçivəsində həlli üçün təşviqedici vasitə rolunu oynaya bilər.

8. Həyat fəaliyyətinin istənilən sahəsində əlillərə qarşı ayrı-seçkiliyin yolverilməzliyinə dair müddəalar həm beynəlxalq-hüquqi sənədlərdə, həm də dövlətdaxili qanunvericilik aktlarında təsbit olunmuşdur. Lakin bir məsələni qeyd etmək lazımdır ki, əlillərə qarşı ayrı-seçkiliyin yolverilməzliyi yalnız birbaşa qaydada ifadə olunmur. Belə ki, təcrübədə əlillik meyarı əsasında ayrı-seçkiliyin yolverilməzliyi həm də güman olunan qadağalar formasında təmin edilir. Nümunə qismində "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyasının 14-cü maddəsində əlilliyə görə ayrı-seçkiliyin qadağan olunması birbaşa şəkildə ehtiva olunmasa da, həmin maddədə qeyd olunan *"hər hansı digər əlamətlərə görə"* ifadə forması əlillik və sağlamlığın pozulmasının müxtəlif hallarına da tətbiq edilməkdədir. Bunu insan hüquqlarının müdafiəsinə dair müxtəlif nəzarət mexanizmlərinin qəbul etdiyi sənədlər sübut edir. Beləliklə, əlilliyə əsaslanmaqla yol verilən ayrı-seçkilik həm bilavasitə, həm də güman olunan mənada, yəni genişləndirici təfsir formasında qadağan edilir.

9. Beynəlxalq hüquq normalarında və AR qanunvericiliyində sağlamlıq imkanları məhdud uşaqların və əlillərin adaptiv bədən tərbiyəsi, onların fiziki reabilitasiyası, eləcə də bununla əlaqədar xüsusi idman hərəkatlarının (paralimpiya, deflimpiya, xüsusi olimpiya hərəkatı) realizə imkanları öz əksini tapmışdır. Doğrudur, bu istiqamətlərdən bəziləri (məsələn, paraolimpiya) inkişaf etdiyi halda, digərləri praktiki baxımdan zəif inkişaf etmişdir. Məhz bu baxımdan, qlobal və milli səviyyədə eşitmə qabiliyyətləri məhdud olan şəxslər üçün deflimpiya və əqli imkanları məhdud şəxslər üçün isə xüsusi olimpiya hərəkatlarının təşviqi, habelə sağlamlıq imkanları məhdud uşaqların və əlillərin adaptiv bədən tərbiyəsinin inkişafı və onların fiziki reabilitasiyasının gücləndirilməsi əlillərin cəmiyyətə inteqrasiyasında mühüm amil sayılmaqla yanaşı, onlar arasında özünəinam hissinin formalaşdırılması, bacarıqlarının düzgün qiymətləndirilməsi və cəmiyyətin tamhüquqlu üzvünə çevrilməsi üçün təkanverici qüvvə sayılır.

10. "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının 30-cu maddəsində əlillərin istirahətinin təşkili ilə bağlı müddəanın, eləcə də Ümumdünya Turizm Təşkilatının qəbul etdiyi sənədlərdə müyəssər turizmə dair normaların təsbit olunmasına baxmayaraq, bu hal praktiki vəziyyətlə heç də uyğunluq təşkil etmir. Lakin nəzərə almaq lazımdır ki, turizmin bu növünün inkişaf etdirilməsi, bir tərəfdən, əlillərin asudə vaxtının səmərəli



təşkili, sağlamlaşdırma xarakterli tədbirlərin görülməsi, onların cəmiyyətə inteqrasiyası, tam və səmərəli daxil olması baxımından mühüm əhəmiyyət kəsb etdiyi halda, digər tərəfdən, sosial və müyəssər turizminin inkişafına müsbət təsir göstərə bilər. Məhz bu baxımdan, əlillər üçün müyəssər turizmin inkişafına dair bir sıra tələblərin (xüsusi elektron resursların formalaşdırılması və tələb-təklif münasibətlərinin mütənasibləşdirilməsi; xüsusi xidməti personalın hazırlanması, yaxud hazırlıq xarakterli təlim kurslarının təşkili; infrastruktur və digər turizm obyektlərinə, habelə yerləşmə vasitələrinə əlillərin maneəsiz daxil olması üçün lazımi imkanların yaradılması və s.) yerinə yetirilməsinin vacibliyi nəzərə alınmalıdır. Digər tərəfdən, əlillər arasında müyəssər turizmin təbliği ilə bağlı informasiya təminatı düzgün qurulmalıdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatçının təklif və tövsiyələrindən AR-in əlillərin hüquqi statusuna dair normayaradıcılıq fəaliyyətində, bu kateqoriyadan olan şəxslərin hüquqlarının realizəsinə təsir göstərə bilən bir sıra qanunvericilik aktlarının təkmilləşdirilməsində, eləcə də lazımi beynəlxalq hüquq normalarının dövlətdaxili qanunvericiliyə implementasiyasında istifadə oluna bilər. Həmçinin, dissertasiya işində irəli sürülən təklif və tövsiyələr əlillərin hüquqlarının qorunması və qanuni maraqlarının təmin edilməsi sahəsində dövlət qurumlarının strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən bu sahədə islahatların həyata keçirilməsi üçün lazımi elmi-nəzəri mənbə rolunu oynaya bilər. Dissertasiya tədqiqatının materialları və müddəaları beynəlxalq hüquqla milli hüquq sisteminin (AR milli qanunvericiliyi kontekstində) qarşılıqlı əlaqəsi baxımından gələcək elmi-nəzəri araşdırmalar üçün də əsas baza rolunu oynaya bilər. Eyni zamanda, dissertasiya materiallarından insan hüquqları, konstitusiya hüququ, inzibati hüquq, əmək hüququ, beynəlxalq təşkilatlar hüququ, beynəlxalq hava hüququ, beynəlxalq dəniz hüququ və s. istiqamətlərdə tədris prosesində geniş istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universiteti "Hüquq" fakültəsində yerinə yetirilmiş, geniş müzakirə edilərək müdafiəyə tövsiyə olunmuşdur. Tədqiqat işinin əsas müddəaları müəllifin dissertasiyasının mövzusu üzrə Azərbaycan Respublikası və Ukraynanın nüfuzlu elmi jurnallarında müxtəlif dillərdə (azərbaycan və rus) dərc etdirdiyi elmi əsərlərdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və strukturu haqqında məlumat verilir.

**I Fəsil "Əlillərin hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinin əsas xüsusiyyətləri və mühüm istiqamətləri: nəzəri və praktiki tənzimetmə meyillərinin təhlili" adlanmaqla özündə üç paraqrafı birləşdirir.**

**Birinci paraqrafda** elmi-nəzəri araşdırmalar və hüquq normalarının müqayisəli təhlili əsasında "əlil" və "əlillik" anlayışları təhlil olunur.

"Əlillik" kateqoriyası beynəlxalq-hüquqi, sosial hüquqların qorunması və sosial təminat hüququ kontekstində nəzərdən keçirilir. Bəzi elmi araşdırmalarda isə bu termin "pozulmuş vəziyyət" anlayışı kimi ifadə olunur. AR 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanununda "əlil", 5 iyun 2001-ci il tarixli "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanununda isə "sağlamlıq imkanları məhdud şəxs" terminindən istifadə olunur.

Bundan əlavə, müvafiq terminlərin məzmununun daha düzgün və dəqiq şəkildə müəyyənləşdirilməsi məqsədilə əlilliyin müxtəlif modellərinin mövcudluğu qeyd edilir:

- **tibbi model.** Sözügedən model qüsurların meydana çıxması və son nəticədə məhdudiyyətlərin yaranması ilə xarakterizə olunur. Bu sahədə qarşıya çıxan problem sosial baxımdan şərtlənən maneələr olmadan fərdi xarakterə malikdir[6].
- **xeyriyyə/rifah modeli.** Tibbi modelə cavab tədbiri olaraq sosial təminatla bağlı yanaşmalar əsasında insanlara yardım göstərilməsinə istiqamətlənmişdir.
- **sosial model.** Təhlil olunan modelə uyğun olaraq, əlillik fərdi qüsurlarla deyil, əlillərin cəmiyyətdən təcrid olunduğu və ya istisna edildiyi sosial sistemlər vasitəsilə müəyyən olunur. Eyni zamanda, bu model əlillərə münasibətdə mövcud olan maneələri də önə çəkir[7].
- **formalaşma konsepsiyası.** Bu konsepsiya qlobal sosial təzahür forması sayılan aidiyyəti qurumlarda sosial dinamikanın əldə edilməsini nəzərdə tutur. Yəni, əlilliyin qarşısının alınması siyasəti ilə məhdudiyyətlərin aradan qaldırılması siyasəti arasında körpü salacaq vasitə sayılır.
- **insan müxtəlifliyi modeli.** Sözügedən modelə əsasən, əlilliyi olan şəxslərin üzləşdiyi problemlərin əksəriyyəti qəsdən həyata keçirilən istisnalar kimi deyil, həmin şəxslərin xarakeri ilə onların fiziki və sosial mühit arasında uyğunsuzluğun mövcudluğu ilə xarakterizə olunur[8]. Bununla əlaqədar, bəzi ədəbiyyatlarda əlilliyi olan şəxslər universal insani şərt kimi əlilliklə, digər araşdırmalarda isə ümumi insan şəxsiyyəti ilə əlaqələndirilir.
- **biopsixo-sosial konsepsiyası.** Qeyd olunan modeldə "əlillik" kateqoriyası insanın daxili və özünəməxsus xüsusiyyətləri ilə onun fiziki, bədən quruluşu, davranış və sosial-siyasi mühitinin qarşılıqlı əlaqəsinin nəticələrini özündə ehtiva edən çoxplanlı anlayış qismində nəzərdən keçirilir. Başqa sözlə, bu konsepsiya tibbi və sosial modellərin inteqrasiyası, vahid nöqtədə birləşməsi və qarşılıqlı əlaqəsi sayılır. Sözügedən konsepsiya Ümumdünya Səhiyyə Təşkilatının əlillik və sağlamlığın qorunması ilə bağlı normayaradıcılıq fəaliyyətinə əsaslanır[9].

Həmçinin, əlilliklə bağlı digər modellərin də adı çəkilir. Nümunə qismində mərkəzi - şəxsiyyət modeli və mərkəzi - əhali modelini, eləcə də bu iki modelə dair səciyyəvi xüsusiyyətləri özündə birləşdirən qarışıq modeli göstərmək olar[10]. Fəlsəfi və sosioloji yanaşma isə əlilliyin modellərini özünəməxsus şəkildə qiymətləndirir. Məsələn, "xəstə insan" modeli, "qeyri-insani" model, "cəmiyyətə təhlükə" modeli, "mərhəmət obyekti" modeli, "xüsusi xeyriyyəçilik obyekti" modeli, "inkişaf" modeli və s.

**İkinci paraqrafda** əlillərin hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi və təminatında sahəvi prinsiplərin yeri və rolu araşdırılır.

---

[6] Altman B. Disability Definitions, Models, Classification Schemes, and Applications. In: Handbook of Disability Studies. Edited by G.L.Albredht, K.D.Seelman, M.Bury. California: SAGE Publications, 2001, pp. 97–122; Amundson R. Disability, Handicap, and the Environment // Journal of Social Philosophy, 1992, Volume 23, pp. 105–119

[7] Promoting the Rights of Children with Disabilities. Innocenti Digest No. 13. Florence: The United Nations Children's Fund (UNICEF), 2007, p. 5

[8] Scotch R.K., Schriner K. Disability as Human Variation: Implications for Policy. The ANNALS of the American Academy of Political and Social Science, 1997, No 549, pp. 148–159

[9] International Classification of Functioning, Disability and Health. Geneva: World Health Organization, 2001, 25 p.

[10] Жаворонков Р.Н. Правовое регулирование труда и социального обеспечения инвалидов в Российской Федерации. Автореф. дисс. на соиск. учен. степ. докт. юрид. наук. М.: 2014, с. 17-18

Əlillərin hüquqlarının müdafiəsində rəhbər başlanğıclar bu şəxslərin subyektiv imkanlarının qorunması sahəsində istiqamətverici rol oynamaqla yanaşı, həm də digər beynəlxalq hüquq normaları arasında "körpü" funksiyasını yerinə yetirir. Həmin rəhbər başlanğıcların beynəlxalq-hüquqi bazası rolunda "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasının 3-cü maddəsi çıxış edir: a) şəxsi seçim etmək azadlığı və müstəqilliyi də daxil olmaqla, insan ləyaqətinə, onun şəxsi sərbəstliyinə hörmət olunması; b) ayrı-seçkiliyə yol verilməməsi; c) cəmiyyətə tam və səmərəli cəlbolunma və daxil olma; ç) əlillərin xüsusiyyətlərinə hörmət olunması və onların insan müxtəlifliyinin komponenti və bəşəriyyətin bir hissəsi kimi qəbul olunması; d) imkanların bərabərliyi; e) müyəssərlik; ə) kişi və qadınların bərabərliyi; f) əlil uşaqların inkişaf edən qabiliyyətinə hörmət və onların öz fərdiliyini saxlamaq hüquqlarına hörmət.

Bu rəhbər başlanğıclar həm də müxtəlif beynəlxalq sənədlərdə və digər aktlarda nəzərdə tutulan müddəalarla qarşılıqlı şəkildə qiymətləndirilmişdir. Belə ki, buraya istər insan hüquqlarının müdafiəsinə dair müxtəlif beynəlxalq-hüquqi sənədləri *(Məsələn, "Uşaq hüquqları haqqında" 1989-cu il Konvensiyası, "Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında" 1960-cı il Konvensiyası, "Texniki və peşə təhsili haqqında" 1989-cu il Paris Konvensiyası və s.)*, istərsə də beynəlxalq təşkilatların qərarlarını *(məsələn, BMT Baş Məclisinin 1991-ci il tarixli qətnaməsi ilə təsdiq olunmuş "Psixi xəstəliyi olan şəxslərin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılmasına dair Prinsiplər" və s.)* aid etmək olar.

Bundan əlavə, insan hüquqlarının müdafiəsi üzrə nəzarət mexanizmlərinin fəaliyyyəti və onların yekun qərarları da əlillərin hüquqlarına dair sahəvi prinsiplərin formalaşması və inkişafına öz töhfəsini vermişdir. Məsələn, İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitənin "Əlilliyi olan şəxslər haqqında" 1994-cü il tarixli 5 nömrəli Ümumi Rəyi, Uşaq Hüquqları Komitəsinin "Əlilliyi olan uşaqların hüquqlarına dair" 2006-cı il tarixli 9 nömrəli Ümumi Rəyi, Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitənin 1991-ci il tarixli 18 nömrəli "Əlil-qadınlar haqqında" Ümumi Tövsiyəsi və s.

Beynəlxalq məhkəmə mexanizmlərinin qərarları isə həmin rəhbər başlanğıcların təcrübədə tanınması və onlara riayət olunması işinə əsaslı təsir göstərmişdir. Nümunə qismində *"Pretti Birləşmiş Krallığa qarşı" (2002), "Glor İsveçrəyə qarşı" (2009), "G.N. İtaliyaya qarşı" (2009), "Kiyutin Rusiyaya qarşı" (2011), "Çam Türkiyəyə qarşı" (2016),*



*"Quberina Xorvatiyaya qarşı" (2016)* və s. işlər üzrə AİH-in çıxartdığı qərarları göstərmək olar.

"Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasından başqa, digər beynəlxalq sənədlərdə də əlillərin müdafiəsinə dair çoxsaylı rəhbər başlanğıclara (məsələn, şəxsi seçim azadlığı da daxil olmaqla, ləyaqət və fərdi müstəqillik, bütün əlillərin cəmiyyətdə tam iştirakı, yaşayış tərzinə təsir edən bütün qərarların qəbulunda fərdi qaydada və ya təmsil olunduqları təşkilatlar vasitəsilə cəmiyyət səviyyəsində iştirak) rast gəlinir. Məsələn, *BƏT-in "Əlilliyi olan şəxslərin peşə reabilitasiyası və məşğulluğu haqqında" 1983-cü il tarixli 159 nömrəli Konvensiyası, "Əlillərin peşə reabilitasiyası haqqında" 1955-ci il tarixli 99 nömrəli Tövsiyəsi, MDB-nin 25 noyabr 2008-ci il tarixli "Əlillərin sosial müdafiəsi haqqında Model Qanun"u, AŞ Nazirlər Komitəsinin 5 aprel 2006-cı il tarixli Tövsiyəsi ilə qəbul olunan "Əlilliyi olan insanların hüquqlarının və cəmiyyətdə iştirakının təşviq edilməsi üzrə Fəaliyyət Planı: 2006-2015-ci illər ərzində Avropada əlilliyi olan şəxslərin həyat keyfiyyətinin yaxşılaşdırılması" adlı sənəd və s.*

**Üçüncü paraqrafda** beynəlxalq hüquq normalarında və dövlətdaxili qanunvericilikdə əlillərə qarşı ayrı-seçkiliyin qadağan olunmasına dair təsbit olunmuş müddəalar təhlil edilmişdir.

"Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyası bu kateqoriyadan olan şəxslərə qarşı ayrı-seçkiliyin qadağan olunmasını, məzmun etibarilə, müxtəlif formalarda nəzərdə tutmuşdur. Sözügedən beynəlxalq-hüquqi sənəddə əlillərə qarşı ayrı-seçkiliyin qadağan olunması rəhbər başlanğıc (maddə 3), dövlətlərin öhdəlikləri (maddə 4), bərabərliyin təmin olunması (maddə 5), onlara məxsus hüquqların (evə və ailəyə hörmət, təhsil, sağlamlıq, əmək və məşğulluq, siyasi və ictimai həyatda iştirak) təmin olunması (maddə 23-25, 27, 29), eləcə də əlil-qadınların müdafiəsi (maddə 6) kontekstində öz əksini tapmışdır. Eyni zamanda, Konvensiyanın 12-ci maddəsi əlillərə məxsus hüquqların müdafiəsi ilə məşğul olan ictimai təşkilatlar tərəfindən irəli sürülən *"iştirakımız olmadan barəmizdə heç nə həyata keçirilməməlidir"* şüarı üçün əsas və fundamental ifadə forması sayıla bilər[11]. Beləliklə, 2006-cı il BMT Konvensiyası təkcə tibbi modelə əsaslanan əlilliyin qarşısının alınmasını deyil, əlillik əlamətlərinə görə ayrı-seçkiliyə yol verilməsi hallarının aradan qaldırılması tendensiyasını özündə ifadə edir.

[11] Pearl A.L. Article 12 of the United Nations Convention on the Rights of Persons with Disabilities and the Legal Capacity of Disabled People: The Way Forward? // Leeds Journal of Law & Criminology, Vol., 1 No. 1, pp. 6-7

Həmçinin, digər beynəlxalq sənədlərdə də əlillərə qarşı ayrı-seçkiliyin yolverilməzliyinə dair müddəalar öz əksini tapmışdır. Məsələn, *1975-ci il tarixli "Əlillərin hüquqları haqqında Bəyannamə", "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik barədə" 1958-ci il tarixli 111 nömrəli BƏT Konvensiyası, "Məşğulluq siyasəti haqqında" 1964-cü il tarixli 122 nömrəli BƏT Konvensiyası, "Əlillərin peşə reabilitiasiyası və məşğulluğu haqqında" 1983-cü il tarixli 159 nömrəli BƏT Konvensiyası, "Əlillərə qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1999-cu il Amerikaarası Konvensiya* və s.

Beynəlxalq məhkəmə praktikasında isə əlillərə qarşı ayrı-seçkiliyin qadağan olunması müxtəlif aspektlərdən qiymətləndirilmişdir. Belə ki, AİHM "İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında" 1950-ci il Avropa Konvensiyasının 14-cü maddəsi (məsələn, *"Kiyutin Rusiyaya qarşı" ( 2011) və s.*), İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyası (məsələn,*"Purohit və Moore Qambiyaya qarşı" işi (2003)* və s.) isə insan hüquqlarına dair BMT sisteminin effektivliliyi kontekstində nəzərdən keçirilmişdir.

Dövlətdaxili qanunvericilik aktları da əlillərə qarşı ayrı-seçkiliyi qadağan edən normaları özündə ehtiva edir. AR təcrübəsində 25 avqust 1992-ci il tarixli "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" AR Qanunu (maddə 1), Əmək Məcəlləsi (maddə 14, 16, 38, 91, 119) və digər qanunvericilik aktlarını göstərmək olar. Mövcud məsələyə xarici ölkələrin qanunvericilik aktlarında da rast gəlmək mümkündür. Belə ki, ABŞ, AFR, Avstraliya, Avstriya, CAR, Estoniya, Finlandiya, İsveç, Kanada, Malavi Respublikası, Portuqaliya, Sloveniya, Tailand və digər ölkələrin təcrübəsi bunun bariz nümunəsidir.

**II Fəsil "Əlillərin hüquqlarının müdafiəsində universal və regional müqavilə və institusional mexanizmlərin təhlili: qarşılıqlı təsir vasitələrinin ümumi xarakteristikası" adlanmaqla üç paraqrafı ehtiva edir.**

**Birinci paraqrafda** müqayisəli təhlil və sistemli yanaşmaya uyğun olaraq, əlillərin hüquqlarının qorunması və müdafiəsinə universal mexanizmlərin təsirinin əsas aspektləri araşdırılmışdır.

Əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində universal səviyyədə həyata keçirilən fəaliyyəti kompleks şəkildə nəzərdən keçirməklə, aşağıdakı formada qruplaşdırmaq olar:

1) əlillərin hüquqlarının qorunması və müdafiəsinə dair müddəaları özündə əks etdirən müxtəlif universal beynəlxalq sənədlərin (ümumi və



sahəvi) qəbulu və onların realizəsi. Həmin sənədlərə *1966-cı il "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt"ı, "Uşaq hüquqları haqqında" 1989-cu il BMT Konvensiyasını, "Texniki və peşə təhsili haqqında" 1989-cu il Paris Konvensiyasını, "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyasını, "Əlillərin hüquqları haqqında" 1975-ci il Bəyannaməsini, "Yerli xalqların hüquqları haqqında" 2007-ci il BMT Bəyannaməsini* və digər beynəlxalq aktları aid etmək olar.

2) beynəlxalq ictimai həyatın ayrı-ayrı sahələri üzrə ictimai münasibətlərin tənzimlənməsinə və bu tənzimetmədən irəli gələn müvafiq insan hüquqlarının qorunmasına cavabdeh olmaqla, əlillərin subyektiv imkanlarına dair fəaliyyəti də özündə ehtiva edən BMT-nin müxtəlif ixtisaslaşmış təsisatlarının normayaradıcılıq və praktiki mexanizmləri. Bu istiqamətdə BMT-nin ixtisaslaşmış təsisatları, xüsusilə, FAO *(2013-cü il tarixli "Əlilliklə bağlı inkluziv aqrobiznesin inkişafına dair Banqkok Tövsiyələri")*, BƏT *("Əlillərin peşə reabilitasiyası və məşğulluğu haqqında" 1983-cü il 159 nömrəli Konvensiya və 168 nömrəli Tövsiyə, "Əlillərin peşə hazırlığı haqqında" 1965-ci il Qətnaməsi və s.)*, Ümumdünya Turizm Təşkilatı *("Hamı üçün müyəssər turizm haqqında" 2005-ci il Qətnaməsi, "Müyəssər turizm haqqında" 2014-cü il San-Marino Bəyannaməsi və s.)*, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı *("Korların, görmə qüsurlu və çap informasiyasını qavramaq imkanı məhdud şəxslərin nəşr edilmiş əsərlərə girişini asanlaşdırmaq haqqında" 2013-cü il Mərakeş Müqaviləsi)*, İKAO *(1990-cı il tarixli "Hava limanlarında xidmətlərə dair Rəhbər Qaydalar", "Əlilliyi olan şəxslərin hava nəqliyyatından istifadə imkanlarına dair Rəhbər Qaydaları" və s.)* kimi qurumların fəaliyyəti daha qabarıq şəkildə özünü büruzə verir.

3) ayrı-ayrı növ insan hüquqlarının qorunması və ya müxtəlif kateqoriya şəxslərin subyektiv imkanlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq müqavilə mexanizmlərinin fəaliyyəti. Bu mexanizmlərə nümunə olaraq Uşaq Hüquqları Komitəsi *(2006-cı il tarixli "Əlilliyi olan uşaqların hüquqlarına dair" 9 nömrəli Ümumi Rəyi və s.)*, Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə *(1991-ci il tarixli 18 nömrəli "Əlil-qadınlar haqqında" Ümumi Tövsiyə və s.)*, İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəni *("Əlilliyi olan şəxslər haqqında" 1994-cü il tarixli 5 nömrəli Ümumi Rəy və s.)* nümunə göstərmək olar.

4) beynəlxalq qeyri-hökumət təşkilatlarının əlillərin müdafiəsində rolu və bununla dövlətlərarası mexanizmlərin fəaliyyətinə təsirinin əsas aspektləri. Bunun bariz nümunəsi kimi 2000-ci ildə Çin Xalq Respublikasının

Pekin şəhərində keçirilən Əlillik məsələləri üzrə qeyri-hökumət təşkilatlarının Ümumdünya Zirvə Toplantısını və həmin tədbirin sonunda qəbul olunan "Yeni minillikdə əlillər haqqında Bəyannamə"ni göstərmək olar. Belə ki, Zirvə Toplantısında təmsil olunan əlillərin hüquqlarının müdafiəsinə dair tanınmış beynəlxalq qeyri-hökumət təşkilatları (məsələn, "Inclusion International", Ümumdünya Korlar İttifaqı, Ümumdünya Karlar Federasiyası və s.) müzakirəyə çıxarılan problemlərin həllinə öz töhfələrini verərək, onları dünya ictimaiyyətinin diqqətinə çatdırmışlar. Hətta bununla əlaqədar aparılan müzakirələrin nəticəsi olaraq Pekin Bəyannaməsi əlillik probleminin həlli ilə bağlı bir sıra prioritet istiqamətləri müəyyən etmişdir.

**İkinci paraqraf** əlillərin müdafiəsində əsas sahəvi beynəlxalq-hüquqi sənəd kimi "Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyası"nın təhlilinə yönəlmişdir.

"Əlillərin hüquqları haqqında" 2006-cı il BMT Konvensiyası və ona Fakultativ Protokolun qəbulunu bir sıra zəruri amillərlə əlaqələndirmək olar. *İlk növbədə,* bu kateqoriyadan olan şəxslərin cəmiyyətin həyatında bütün lazımi imkanlara malik bərabərhüquqlu subyekt kimi qəbulu, habelə onun dövlət tərəfindən yardım olunan passiv şəxslərdən hüquq daşıyıcılarına çevirmək zərurəti müvafiq beynəlxalq-hüquqi sənədin qəbulunu şərtləndirmişdir. Çünki son onilliklərə qədər istənilən cəmiyyətin inkişafı sahəsində hər hansı vəzifə və ya məqsədlərin icrasına nail olunması və ya qarşıya çıxan problemin həlli zamanı əlillərin real vəziyyəti əksər hallarda nəzərə alınmamışdır. Bu isə əlillərin cəmiyyətdən təcridinə və onlarda bir sıra mənfi keyfiyyətlərin (depressiya, özünəinamsızlıq, avaraçılıq və dilənçilik, neqativ məqsədlər üçün istifadə obyektinə çevrilməsi və s.) formalaşmasına gətirib çıxarırdı. *İkincisi,* hüquqi baxımdan öhdəlik yaradan beynəlxalq sənəd əsasında əlillərin qarşısına çıxan problemlərin kompleks həlli, o cümlədən onların mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının effektiv müdafiəsi və təşviqi vacib meyarlardan biri olmuşdur. *Nəhayət,* əvvəlki dövrlərdə əlillərin hüquqlarına dair beynəlxalq sənədlərdə sahəvi nəzarət mexanizminin yaradılması və fəaliyyətinə dair hər hansı müddəaya rast gəlinmirdi. Bu baxımdan, 2006-cı il Konvensiyasını əlillərin hüquqlarının müdafiəsinə dair əvvəlki analoji beynəlxalq sənədlərdən fərqləndirən əsas əhəmiyyətli məqamlardan biri də sahəvi nəzarət mexanizminin nəzərdə tutulmasıdır. Bu isə özünü iki səviyyədə büruzə verir:

1. Dövlətdaxili səviyyədə monitorinq mexanizmi qanunvericilik və sahəvi qurumlarını təşkilati strukturlarından asılı olaraq əlaqələndirici formada fəaliyyəti nəzərdə tutur.



2. Beynəlxalq səviyyədə nəzarət isə Əlillərin hüquqları üzrə Komitə tərəfindən həyata keçirilir. Yeri gəlmişkən, 2 oktyabr 2008-ci il tarixli 686-IIIQ nömrəli Qanunla AR 2006-cı il BMT Konvensiyasına qoşulmuşdur. Bu isə avtomatik olaraq Əlillərin hüquqları üzrə Komitənin monitorinq fəaliyyətinin realizəsinə şərait yaradır. Məhz bunun nəticəsi olaraq, Komitə ölkəmizin ilk hesabatı üzrə 2014-cü ilin aprel ayının 10-da yekun tövsiyələrini qəbul etmişdir.

**Üçüncü paraqrafda** hüquq normaları və institusional mexanizmlərin qarşılıqlı müqayisəsi əsasında regional səviyyədə əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığın ümumi vəziyyəti qiymətləndirilmişdir.

Əlillərin hüquqlarının qorunmasına dair çoxsaylı regional normalar mövcuddur ki, bu da özünü aşağıdakı sənədlərdə büruzə verir:

1. Bütövlükdə insan hüquqlarının qorunmasına dair müddəaları ifadə etməklə, əlillərin müdafiəsinə toxunan beynəlxalq sənədlər. Məsələn, *1996-cı il tarixli "Yenilәşdirilmiş Avropa Sosial Xartiyası", "İnsan hüquqları və əsas azadlıqları haqqında" 1995-ci il MDB Konvensiyası, 1981-ci il tarixli "İnsan və xalqların hüquqlarına dair Afrika Xartiyası"na Əlavə "Qadınların hüquqları haqqında" 2003-cü il Protokolu, "Uşaqların hüquqları və rifahı haqqında" 1990-cı il Afrika Xartiyası və s.*

2. Bilavasitə əlillərin hüquqlarının qorunmasına yönəlmiş sahəvi beynəlxalq sənədlər. Məsələn, *"Əlillik problemlərinin həlli və əlillərə dair əməkdaşlıq haqqında" 1996-cı il MDB Sazişi, "Əlilliyi olan şəxslərə qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" 1999-cu il Amerikaarası Konvensiya və s.*

3. Əlillərin hüquqlarının qorunması sahəsində konkret məsələlərin tənzimlənməsinə yönəlmiş beynəlxalq təşkilatların qərarları. Məsələn, *AŞPA-nın 1992-ci il tarixli 1185 nömrəli "Əlillərin reabilitasiyasına dair siyasət üzrə" Tövsiyəsi, Aİ-nin 2000-ci il tarixli "Məşğulluq sahəsində bərabərlik haqqında" Direktivi, "Amerika yarımkürəsində əlillərin vəziyyətinə dair" 1993-cü il tarixli 1249 nömrəli və 1995-ci il tarixli 1356 nömrəli qətnamələr, Afrika İttifaqının "Məşğulluq və yoxsulluğun azaldılması üzrə" 2004-cü il Bəyannaməsi və Fəaliyyət Planı, "Sahəvi əməkdaşlığın inkişafına dair GUAM Strategiyası" və s.*

4. İcrası konkret müddətləri əhatə etməklə, strateji istiqamət və prinsipləri müəyyənləşdirən müxtəlif regional sənədlər, yaxud model qanunlar. Məsələn, *Aİ-nin "Əlilliyə dair Strategiya (2010-2020)", 1999-cu*

*ilin iyulunda qəbul olunan və 1999-2009-cu illər üzrə icrası nəzərdə tutulan "Əlilliyi olan şəxslərlə bağlı Onillik Afrika Sənədi", ƏDL çərçivəsində qəbul olunan və 2003-2014-cü illəri əhatə edən "Əlilliyi olan şəxslərlə bağlı Ərəb Onilliyi", "Əlillərin hüquqlarının və ləyaqətinin qorunmasında Onillik Amerika Fəaliyyət Planı (2006 – 2016)" və s.*

Bu sənədlərin bəzisinin icra müddəti formal olaraq başa çatsa da, nəzərdə tutulan tədbirlərin davam etdirilməsi onların hüquqi qüvvədə olması zərurətini şərtləndirir. Model qanunlara isə MDB təcrübəsində rast gəlmək mümkündür. Məsələn, 7 dekabr 2002-ci il tarixli "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Model Qanun", 18 noyabr 2005-ci il tarixli "Radiasiya qəzaları, nüvə sınaqları və hadisələri nəticəsində radioaktiv şüalanmaya məruz qalan vətəndaşların sosial müdafiəsi haqqında Model Qanun", 25 noyabr 2008-ci il tarixli "Əlillərin sosial müdafiəsi haqqında Model Qanun" və "Paralimpiya idmanı haqqında Model Qanun" və s.

5. Milli məhkəmələr üçün presedent sayıla bilən və yeni beynəlxalq hüquq normalarının formalaşdırılmasına təkan verəcək beynəlxalq məhkəmə mexanizmlərinin çoxsaylı qərarları. Bu, daha çox özünü AİHM-in təcrübəsində büruzə verir. Həmin qərarlarda (məsələn, *Glor İsveçrəyə qarşı" (2009), Alajos Kiss Macarıstana qarşı" (2010)*") birbaşa olaraq əlillərin pozulmuş hüquqlarının bərpasına dair müddəalar mövcuddur. Eyni zamanda, AİHM öz qərarlarında digər subyektiv imkanların müdafiəsi kontekstində əlillərin hüquqlarına və qanuni maraqlarına toxunmuşdur. Belə ki, həmin qərarlar yaşamaq hüququ *(məsələn, "Jasinkis Latviyaya qarşı" və s.)*, işgəncələrin qadağan olunması *(məsələn, "Vincent Fransaya qarşı" və s.)*, azadlıq və toxunulmazlıq hüququ *(məsələn, "Stanev Bolqarıstana qarşı" və s.)*, ədalətli məhkəmə araşdırması hüququ *(məsələn, Sktukaturov Rusiyaya qarşı" və s)*, şəxsi həyata və ailə həyatına hörmət hüququ *(məsələn, "Botta İtaliyaya qarşı" və s.)*, nikah hüququ *(məsələn, "Lashin Rusiyaya qarşı" və s.)*, mülkiyyət hüququ *(məsələn, "Katai Macarıstana qarşı" və s.)*, təhsil hüququnun *(məsələn, "Gherghina Rumınıyaya qarşı" və s.)* müdafiəsinə yönəlməsinə baxmayaraq, əlillərlə bağlı müddəaları da özündə ethiva edir.

**III Fəsil "Azərbaycan Respublikasının təcrübəsində əlillərin hüquqlarının realizəsinin əsas formaları: qanunvericilik normalarının və institusional mexanizmlərinin fəaliyyətinin müqayisəli təhlili" adlanmaqla iki paraqrafı özündə birləşdirir.**



**Birinci paraqrafda** əlillərin hüquqlarının müdafiəsinə dair AR qanunvericiliyi təhlil olunmaqla, bu sahədə mövcud olan dövlətdaxili normalar sistemləşdirilir və təsnifatlaşdırılır.

Dissertasiya işində bu sahədə mövcud olan qanunvericilik aktları iki əsas qrupa bölünməklə, birinci qrupa əlillərlə bağlı ümumi müddəaları müəyyən edən, əlilliyi doğuran səbəblərin aradan qaldırılması və əlillərin reabilitasiyası ilə bağlı ümumi müddəaları nəzərdə tutan sahəvi qanunvericilik aktları (məsələn, 25 avqust 1992-ci il tarixli *"Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında"* Qanun) aid edilir. İkinci qrup qanunvericilik aktları qismində isə ölkə ərazisində meydana çıxan müxtəlif ictimai münasibətlərin nizama salınması kontekstində, eyni zamanda, əlillərin hüquqlarının müdafiəsinə də toxunan dövlətdaxili sənədlər nəzərdən keçirilir. Həmin qanunvericilik aktları çoxsahəli və çoxşaxəli olduğundan, öz növbəsində onların müəyyən meyarlar əsasında təsnifləşdirilməsi məqsədəmüvafiq hesab olunur:

1. Sosial siyasət və sosial təminat, habelə onların ayrı-ayrı komponentlərinin həyata keçirilməsi ilə bağlı müxtəlif münasibətlərin nizama salınması kontekstində əlillərin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş qanunvericilik aktları. Məsələn, *"Sosial xidmət haqqında" 30 dekabr 2011-ci il Qanunu, "Sosial müavinətlər haqqında" 7 fevral 2006-cı il Qanunu* və s.

2. Məşğulluq və işədüzəlmə, eləcə də peşə və əmək fəaliyyətinin müxtəlif aspektlərini tənzimləməklə, əlillərin də müvafiq istiqamətlər üzrə hüquqlarının qorunmasına toxunan qanunvericilik aktları. Məsələn, *"Məşğulluq haqqında" 2 iyul 2001-ci il tarixli Qanun, "Əmək pensiyaları haqqında" 7 fevral 2006-cı il tarixli Qanun və s.*

3. Uşaq hüquqlarının qorunması kontekstində əlil-uşaqların qayğı ilə əhatə olunması və onların cəmiyyətin digər üzvləri ilə bərabər şəkildə dəyərləndirilməsinə yönəlmiş qanunvericilik aktları. Məsələn, *19 may 1998-ci il tarixli "Uşaq hüquqları haqqında" Qanun və s.*

4. Elm, təhsil və mədəniyyət sahəsində münasibətlərin tənzimlənməsi kontekstində əlillərin bu sahədə cəmiyyətə adaptasiyasının təmin olunmasına dair normaları ehtiva edən qanunvericilik aktları. Məsələn, *5 iyun 2001-ci il tarixli "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanun, 21 dekabr 2012-ci il tarixli "Mədəniyyət haqqında" Qanun və s.*

5. Nəqliyyat və rabitə sahəsində vətəndaşların yüksək keyfiyyətli xidmətlərlə təmin olunması kontekstində onların müvafiq hüquqlarının müdafiəsi, eləcə də bu istiqamətdə dövlət siyasətinin həyata keçirilməsinə əsaslanmaqla, əlillərlə bağlı müddəaları da özündə birləşdirən qanunvericilik aktları. Məsələn, *22 dekabr 1999-cu il tarixli "Avtomobil yolları haqqında" Qanun, "Yol hərəkəti haqqında" 3 iyul 1998-ci il tarixli Qanun və s.*

6. Bədən tərbiyəsi və idmanın inkişafı, habelə bununla əlaqədar meydana çıxan münasibətlərin tənzimlənməsinə yönəlmiş münasibətlərin nizama salınması kontekstində əlillərin bədən tərbiyəsi və idman imkanlarının təşviq olunması ilə bağlı müddəaları özündə birləşdirən qanunvericilik aktları. Məsələn, *30 iyun 2009-cu il tarixli "Bədən tərbiyəsi və idman haqqında" Qanun* və s.

7. Sağlamlığın qorunması hüququnun realizəsi və müdafiəsinin müxtəlif aspektləri ilə bağlı münasibətlərin nizama salınmasına yönəlmiş, eləcə də bu sahədə əlillərin hüquqlarının müdafiəsinin spesifik xüsusiyyətlərinə toxunan qanunvericilik aktları. Məsələn, *"İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklərlə mübarizəsi haqqında" 11 may 2010-cu il Qanunu, "Onkoloji yardım haqqında" 23 may 2006-cı il Qanunu, "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında" 3 may 2005-ci il Qanunu və s*

8. Torpaqdan istifadə və torpaq üzərində mülkiyyətin tənzimlənməsi, o cümlədən bununla bağlı digər məsələləri tənzimləyən, lakin bu sahədə əlillərin hüquqlarını özündə ifadə edən qanunvericilik aktları. Məsələn, *"Torpaq islahatı haqqında" 16 iyul 1996-cı il Qanunu, "Torpaq bazarı haqqında" 7 may 1999-cu il tarixli Qanun* və s.

9. Ekologiyanın qorunması və ətraf mühitdən istifadə kontekstində əlillərin sahəvi hüquqlarının müdafiəsi və realizəsini qeyd edən müddəalar. Məsələn, *AR Prezidentinin 8 iyul 2008-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Ətraf mühitə və insan sağlamlığına mənfi təsir göstərən vibrasiya və səs-küy çirklənmələri Normaları"* və s.

10. Cinayətkarlığın qarşısının alınması və aradan qaldırılmasına yönəlmiş, habelə əlil kateqoriyasına mənsub şəxslər tərəfindən törədilən ictimai təhlükəli əməllərin ləğvi ilə bağlı müddəaları özündə əks etdirən qanunvericilik normaları. Məsələn, *"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" 28 iyun 2005-ci il tarixli Qanun* və s.

11. Cəza-icra sahəsində və cinayət prosesində insan hüquqlarının qorunması baxımından əlillərin bu istiqamətlərdə lazımi subyektiv imkanlarının müdafiəsinə dair müddəaları özündə ehtiva edən qanunvericilik aktları. Məsələn, *"Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" 22 may 2012-ci il tarixli Qanun, 11 dekabr 1998-ci il tarixli "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanun* və s.



**İkinci paraqrafda** müasir tendensiya və yeni yanaşmalara nəzəri və praktiki baxış əsasında əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində fəaliyyət mexanizminin formalaşmasında dövlət orqanlarının yeri və rolu araşdırılır.

Əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində mövcud normalarla real praktiki vəziyyət arasında qarşılıqlı əlaqənin düzgün qurulması və birincinin daim işlək mexanizmə çevrilməsinin təmin olunmasında dövlət özünün aidiyyəti və səlahiyyətli qurumları vasitəsilə çıxış edir. Bütövlükdə dövlət idarəçiliyinin formalaşması üçün konkret dövlətin tarixi inkişaf yolu və dövlətçilik ənənələri, habelə beynəlxalq hüquq normaları və beynəlxalq qurumların müəyyən tövsiyələri nəzərə alınmaqla, lazımi hüquqi bazanın yaradılması və nəzarət mexanizminin qurulması xüsusilə vacib məsələdir. Eyni zamanda, dövlət idarəçiliyinin sürətlə dəyişən ictimai münasibətlərə adekvat və çevik reaksiyası, habelə qlobal şəraitdə dövləti maraqların qorunması da mütləq şəkildə nəzərə alınmalıdır. Bütün bunlar isə son nəticədə idarəetmə mədəniyyətinin formalaşmasına gətirib çıxarmaqla, dövlətçiliyin əsasını təşkil edən amillərin nəzərə alınmasına öz təsirini göstərir. Şübhəsiz ki, dövlət idarəetmə mexanizmin effektivliyinin artırılmasında idarəetmə prosesində yaranan inzibati-hüquqi münasibətlərin tənzimlənməsi, eləcə də idarəetmə subyektləri ilə obyekti arasında qarşılıqlı əlaqənin özünəməxsusluğu da diqqətdən yayınmamalıdır.

Məhz bu baxımdan, AR Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında təsbit olunan əsas prioritetlərdən biri də məhz qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsidir. Konsepsiyada nəzərdə tutulan hədəflərə çatmaq üçün bu prioritet çərçivəsində institusional potensialın gücləndirilməsi üç əsas istiqaməti özündə birləşdirir: 1) dövlət sektorunda insan resurslarının inkişafı; 2) "elektron hökumət" fəaliyyətinin genişləndirilməsi; 3) institusional islahatların davam etdirilməsi.

Əlillərin hüquqlarının qorunması və müdafiəsi mexanizminin formalaşdırılması baxımından, ölkəmizdə mövcud olan dövlət qurumlarını aşağıdakı qaydada təsnifləşdirmək olar: 1. AR Konstitusiyasının 7-ci maddəsinin III

hissəsinə uyğun olaraq, hakimiyyətlərin bölünməsi prinsipinə əsaslanmaqla, bu bölgünün hər bir qolu üzrə ali hakimiyyət funksiyalarını həyata keçirən qurumlar (məsələn, *AR Prezidenti, Milli Məclis, məhkəmələr*); 2. Özünəməxsus hüquq, vəzifə və səlahiyyətlərə malik olmasına baxmayaraq, öz fəaliyyətində əlillərin və sağlamlıq imkanları məhdud şəxslərin hüquqi statusuna mütəmadi toxunan dövlət qurumları (məsələn, *Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi* və s.); 3. Spesifik fəaliyyət istiqamətinə malik olmaqla, zəruri hallarda və yaranan hüquq münasibətlərinin tələb etdiyi şəraitdə əlillərlə bağlı məsələlərə toxunan qurumlar (məsələn, *Maliyyə Nazirliyi, Statistika Komitəsi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Mərkəzi Bank* və s.); 4. İnsan hüquqlarının müdafiəsinə dair beynəlxalq hüquq normalarının tələbləri və aidiyyəti beynəlxalq təşkilatların tövsiyələri, habelə dünya təcrübəsi əsasında formalaşdırılan qurumlar (məsələn, *AR-in İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanı)*); 5. Dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsinə dair ölkəmizdə aparılan islahatların tərkib hissəsi qismində çıxış edən, habelə vətəndaşlara göstərilən xidmətlərin şəffaflaşdırılması və təkmilləşdirilməsinin nəticəsi sayılmaqla, Azərbaycanın qabaqcıl təcrübəsinin yeni modeli olan qurumlar (məsələn, *AR Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi*).

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiyanın əsas məzmunu dissertantın aşağıdakı məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**


1. "Əlillərin hüquqları haqqında" BMT Konvensiyası əlillərin hüquqlarının müdafiəsinin əsas beynəlxalq-hüquqi bazası kimi // Beynəlxalq hüquq və inteqrasiya problemləri № 4 (40), 2014. səh. 136-142.

2. Əlillərin hüquqlarının müdafiəsi istiqamətində müasir qlobal tendensiyalar və Azərbaycan təcrübəsi // Polis Akademiyasının Elmi Xəbərləri // № 3-4 (14), 2015. səh. 80-87.

3. Əlillərin hüquqlarının qorunması və müdafiəsi sahəsində Azərbaycan Respublikasının dövlət orqanlarının yeri və rolu // Beynəlxalq hüquq və inteqrasiya problemləri. № 4 (44), 2015. səh. 139-146.

4. Beynəlxalq hüquq normaları və dövlətdaxili qanunvericilikdə əlillərə qarşı ayrı-seçkiliyin qadağan olunmasının nəzəri və praktiki məsələləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, № 4 (52), 2015. səh. 229-236.





5. Azərbaycan Respublikasının dövlətdaxili qanunvericiliyində əlillərin hüquqularının müdafiəsinin əsas aspektləri: ümumi qiymətləndirmə və qarşılıqlı təhlil // Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Heydər Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları, iki cilddə, I cild. Bakı: "MBM" nəşriyyatı, 2015. səh.68-75.

6. "Əlil" və "əlillik" anlayışları əlillərin hüquqlarının müdafiəsinin əsas meyarı kimi: beynəlxalq hüquq normalarının və dövlətdaxili qanunvericiliyin müqayisəli təhlili//Azərbaycan Respublikası Konstitusiyasının 20 illiyinə həsr edilmiş "Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları" mövzusunda V respublika elmi-nəzəri konfransının materialları. Bakı: "Təknur", 2015. səh. 191-199.

7. İmkanların bərabərliyi və müyəssərlik prinsipləri əlillərin hüquqlarının müdafiəsinə təsirin mühüm elementləri kimi // Nəqliyyat hüququ. Elmi-nəzəri, təcrübi jurnal. № 2-3. 2016. səh. 109-121.

8. Запрещение дискриминации и защита прав людей с ограниченными возможностями в международном контексте прав человека: Азербайджанская Республика и международная практика // Наука и правоохорона № 2 (32), 2016. стр. 251-261.

9. The function of the staff of the ConstitutionalCourt of the Republic of Azerbaijan withinnthe process of adminstration of constitutional justice // The role of asisstant-magistrates in the jurisdiction of constitutional courts/ Constituional court of Romania/ 2016. Pg.41-43.

10. Sabina Aliyeva. Freedom assembly and freedom of speech in the Republicof Azerbaijan at present time // 3$^{nd}$ summer school of the association of Asian Constitutional courts and equivalent institutions. 30 august-09 september 2015. Ankara.

## РЕЗЮМЕ

Диссертационная работа Сабины Яшар кызы Алиевой на тему «Имплементация международно-правовых норм в сфере защите прав инвалидов в законодательство Азербайджанской Республики», представленная на соискание ученой степени доктора философии права по специальности 5603.1 – «Международное право; права человека» является самостоятельным, творческим и завершенным исследовательским трудом. Диссертационная работа выполнена на основе сравнительного анализа обширной международной договорной практики, законодательств различных государств, включая Азербайджанскую Республику, и существующих разногласий в правовой литературе. Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность темы, указывается степень ее разработанности, научная новизна, цели и задачи, представленные к защите новые положения, теоретическое и практическое значение исследования.

Первая глава называется «Основные элементы и важные направления международно-правовой защиты прав лиц с ограниченными возможностями: анализ теоретических и практических тенденций регулирования» и состоит из трех параграфов. В этой главе рассматриваются сравнительный анализ понятий «инвалидность» и «инвалид», различия между категориями «лицо с инвалидностью» и «инвалид», особые принципы, касающиеся международно-правовой защиты и обеспечения прав инвалидов, а также запрещение дискриминации в отношении лиц с ограниченными возможностями.

Вторая глава диссертационной работы называется «Анализ универсальных и региональных договорных и институциональных механизмов в области защиты прав инвалидов: общая характеристика взаимных влиятельных средств» и состоит из трех параграфов. Данная глава сосредоточена на универсальных и региональных договорных нормах, охватывающих защиту, обеспечение и реализацию прав инвалидов, а также деятельность различных международных организаций, специализированных учреждений ООН, международных судебных средств защиты и механизмов контроля в области прав человека. В диссертационной работе на основании сравнительного анализа и путем системного выявления были тщательно исследованы роль и влияние Конвенции ООН о правах инвалидов 2006 года в области защиты и обеспечения прав инвалидов.

Третья глава диссертационной работы под названием как «Основные формы реализации прав инвалидов на практике Азербайджанской Республики: сравнительный анализ законодательных норм и деятельности институциональных механизмов» состоит из двух параграфов. В ней дается общая оценка и комплексной систематизации права инвалидов в законодательстве Азербайджанской Республики, а также анализ деятельности государственных органов в этом вопросе. Одновременно с этим, исследованы новые тенденции совершенствования и развития данной проблемы в правительственных структурах Азербайджанской Республики.

В заключении представлены полученные в ходе исследования выводы и предложения, в том числе, раскрыто их теоретико-практическое значение для международной и внутригосударственной нормативной правовой системы.



## SUMMARY

Sabina Yashar Aliyeva`s dissertation work presented for attaining the degree of PhD on the specialization “5603.01- International law; human rights” titled as “Implementation of international law norms on the protection of disabled persons` rights into legislation of the Republic of Azerbaijan” is independent, creative and completed research work. The dissertation work is formed on the basis of comparative analysis concerning extensive international treaty practice, legislation of the different countries, including Azerbaijan, and various points of views existing in the legal literatures. Dissertation work consists of introduction, three chapters, conclusion and bibliography.

Topicality is substantiated, also the theoretical and practical importance of research, aims and goals, development rate, new approaches to the topic and novelty of the research work have been specified in the introduction.

First chapter is titled as “Essential peculiarities and significant directions on international legal protection of the disabled persons` rights: analysis of theoretical and practical regulation tendencies” and comprises three paragraphs. This chapter deals with comparative analysis of “disability” and “disabled person” categories, differences between “person with disability” and “disabled person”, special principles relating to international legal protection and ensuring the disabled persons` rights as well as prohibition of discrimination against persons with disabilities.

Second chapter of the dissertation work is named as “Analysis of universal and regional treaty and institutional mechanisms in protection of disabled persons` rights: general characteristic of mutual influential remedies” and contains three paragraphs. This chapter is focused on the universal and regional treaty norms covering the protection, ensuring and implementation of disabled persons` rights as well as the activity of various international organizations, UN specialized agencies, international judicial remedies and control mechanisms on human rights. In dissertation work the role and impact of Convention on the rights of persons with disabilities 2006 in the field of protection and provision of disabled persons` rights had been explored perfectly on the basis of comparative analysis and by systematic elucidation.

Third chapter of dissertation work titled as “Main forms on realization of the disabled persons` rights in practice of the Republic of Azerbaijan: comparative analysis of legislative norms and institutional mechanisms` activity” contains two paragraphs, referring to overall assessment and complex systematization of disabled persons` rights in the legislation of the Republic of Azerbaijan as well as the activity of governmental bodies on this issue. At the same time, the new tendencies of improvement and development in governmental structures of the Republic of Azerbaijan were researched in dissertation work.

The conclusion part of the dissertation work is comprised of the suggestions and the results achieved as a result of research work. Also their theoretical and practical significance for international and domestic normative legal system were revealed.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**САБИНА ЯШАР кызы АЛИЕВА**

# ИМПЛЕМЕНТАЦИЯ МЕЖДУНАРОДНО-ПРАВОВЫХ НОРМ В СФЕРЕ ЗАЩИТЫ ПРАВ ИНВАЛИДОВ В ЗАКОНОДАТЕЛЬСТВО АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Специальность: 5603.01-«Международное право;
права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени
доктора философии права**

**БАКУ – 2016**